# Xüsusi əhəmiyyətə malik Şəhriyar-Kələxana avtomobil yolu yenidən qurulub

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən mütəmadi olaraq yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.**



Bütün yollar bizi Qarabağa aparır

Respublikamızda kənd yollarının inşası və yenidən qurulması layihələrinin icrası həm də vətəndaşların sosial rifah halına müsbət təsir göstərən sənaye, turizm və kənd təsərrüfatının inkişafına hesablanıb.

Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq, bu layihələrdən daha biri Şamaxı rayonunda həyata keçirilib. Belə ki, bir müddət əvvəl Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yenidənqurma işlərinə start verilən Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 122-ci km-dən ayrılan Şəhriyar-Kələxana avtomobil yolunun tikintisi yekunlaşıb.

Ötən əsrin 70-ci illərinin normativləri əsasında tikilən, qara və çınqıl örtüklü olan Şəhriyar-Kələxana avtomobil yolu uzun illər təmir olunmadığından yolun torpaq yatağı deformasiyaya uğramış, yol geyimində çökmələr əmələ gəlmiş, istismar üçün yararsız vəziyyətə düşmüş və nəqliyyat vasitələrinin hərəkətində çətinliklər yaranmışdır. Bu səbəbdən yolun əsaslı şəkildə təmir olunmasına ehtiyac var idi.

Artıq 3 min nəfər əhalinin yaşadığı iki yaşayış məntəqəsini birləşdirən Şəhriyar-Kələxana avtomobil yolu 2 hərəkət zolaqlı olaraq IV texniki dərəcəyə uyğun təkmilləşdirilib.

Layihə çərçivəsində ilkin mərhələdə marşrut boyu mövcud örtüyün sökülməsi, yararsız yol geyiminin və torpaq yatağının deformasiyaya uğramış hissələrinin qazılaraq kənara daşınması, əvəzinə karxana çınqılı tökülərək kipləşdirilməsi və yeni yol yatağının inşası işləri aparılıb. Daha sonra işlərin yekunlaşdığı ərazilərdə 12 sm qalınlıqda olmaqla yeni asfalt-beton örtüyünün döşənməsi işləri görülüb.

Ümumi uzunluğu 8 km olan yolun hərəkət hissəsinin eni 6, çiyinlərin eni 2 metrdir.

Tikinti işlərinin sonuncu mərhələsində avtobus dayanacaqları inşa edilib, hərəkətin normal təşkili üçün yol nişanı və məlumatverici lövhələr quraşdırılıb, həmçinin yolcizgi və yolgöstərici xətlər çəkilib. Tərtib olunmuş qrafikə uyğun kompleks şəkildə görülən bu işlər bütün hərəkət iştirakçılarının rahatlığı və təhlükəsizliyi üçün hesablanıb.

Qeyd edək ki, Kələxana kəndi ərazisində yerləşən XVII əsrə məxsus Kələxana türbələri dünyanın ən unikal tarixi komplekslərindən sayılır. Bura daxil olan 9 abidə orta əsrlərdə formalaşmış Şirvan-Abşeron memarlıq məktəbinə aiddir.

Üzümçülüyün sahəsinin inkişaf etdiyi ərazilərdən sayılan Şəhriyar qəsəbəsi isə dünya şöhrətli “Mədrəsə”, “Şirvanşahı”, “Şamaxı mərəndisi”, “Qara mərəndi”, “Qızılı mərəndi” kimi qiymətli üzüm sortlarının yarandığı və becərildiyi yer kimi məşhurdur.

Ümumiyyətlə isə qədim Şamaxının bu əraziləri tarixi abidələrlə, təbiət gözəllikləri ilə zəngindir.

Bu baxımdan Şəhriyar-Kələxana avtomobil yolunun yenidən inşası təkcə vətəndaşların rahat gediş-gəlişinin təmin olunmasına deyil, həm də kənd təsərrüfatının və turizmin inkişafına xidmət edəcək.

Azərbaycan.- 2020.- 7 noyabr.- S.10.